**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:___________(kafedra müdiri)
Tarix: ______sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Azərbaycan ədəbiyyatı tarixi-4 |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və ədəbiyyatı |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavr |
| | **Kurs** | III |
| | **Semestr** | VI |
| | **Təlimçi** | _Dosent Əli Həsənqulu oğlu Həşimov |
| | **e-mail** | |
| | **Telefon** | 070 365 81 65 |
| | **Dərs günləri və saatları** | III gün 1-ci saat, V gün 3-cü saat |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957<br>İnayət Bəktaşi. Abdulla bəy Divanbəyoğlu. Bakı, 1984<br>Əziz Mirəhmədov. Abdulla Şaiq. Bakı, 1956<br>C.Nağıyeva. S.S.Axundov arxivinin təsviri. Bakı, 1962<br>Nadir Vəlixanov. Süleyman Sani Axundov. Bakl, 1976<br>Sultan Məcid Qənizadə. Seçilmiş əsərləri. Bakı, 2006<br>Əziz Mirəhmədov. Məhəmməd Hadi. Bakı, 1962; 1985<br>Məmməd Cəfər. Hüseyn Cavid. Bakı, 1960<br>Məmməd Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı, 1963<br>Məsud Əlioğlu. Hüseyn Cavidin romantizmi. Bakı, 1975<br>Kamran Əliyev. Azərbaycan romantizminin poetikası. Bakı, 2002<br>Kamal Talıbzadə. Abbas Səhhət. Bakı, 1955; 1984<br>İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 2009<br>Məmməd Məmmədov. Sabir və mətbuat. Bakı, 1974<br>Alxan Bayramoğlu. Azərbaycan jurnalistika məktəbləri. Bakı, 2014<br>Şamil Vəliyev. Füyuzat ədəbi məktəbi. Bakı, 1999<br>Səadət Vahabova. Cəlil Məmmədquluzadə nəsrinin poetikası. Bakı, 2013<br>Xeyrulla Məmmədov. Sultan Məcid Qənizadə. Bakı, 1983 | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Azərbaycan ədəbiyyatı tarixi-4 fənnində 1900-1920-ci illər Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yolu, bu dövrün görkəmli şəxsiyyətlərinin həyatı, mühiti və yaradıcılığı öyrənilir. “Molla Nəsrəddin” jurnalı və tənqidi realist ədəbiyyat, maarifçi-realist ədəbiyat, romantikzm, sentimentalizmin görkəmli nümayəndələrinin həyatı, mühiti, yaradıcılığı öyrənilir. Həmçinin XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişaf yolu mərhələlər üzrə tədris olunur, “Molla Nəsrəddin” və “Füyuzat” ədəbi cəbhəsinə məxsus olan sənətkarlar həyatı, ictimai fəaliyyəti, fəaliyyətinin, irsinin tədqiqi məsələləri də öyrənilir. | |

<table>
<tr><td></td><td colspan="2"></td></tr>
<tr><td>Fənnin məqsədləri</td><td colspan="2">Bu fənnin məqsədi tələbələrə 1900-1920-ci illər Azərbaycan ədəbiyyatını mənimsətmək, bu dövr ədəbiyyatımızın inkişaf qanunauyğunluqları, ədəbiyyatımızda müşahidə olunan dünyəviləşmə prosesi, ədəbiyyatımıza daxil olan müxtəlif izmlərin ədəbi prosesə təsiri məqamları, məlum dövrdə milli mətbuatın inkişaf yolunun izlənməsi, görkəmli ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılığını mənimsətməkdir.</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="2">Kursun sonunda tələbələr bilməlidir ki, bu fənni öyrənməklə onların bədii zövqü formalaşır, görkəmli şəxsiyyətlərimizin həyatı yaradıcılığını öyrənirlər, ədəbi yaddaşda qalan bədii nümunələri mənimsəyirlər.<br>Kursun sonundakı öyrənmə nəticələri aşağıdakı şəkildədir:<br>-tələbələr kursun sonunda Azərbaycan tənqidi-realizmi və “Molla Nəsrəddin” jurnalının nəşr tarixini ümumiləşmiş şəkildə mənimsəyir;<br>-Azərbaycan romantizminin yaranması və inkişaf yolunu, görkəmli şəxsiyyətlərinin həyatı və yaradıcılığını mənimsəyirlər;<br>- XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında maarifçi-realizmin təşəkkül tarixini və görkəmli şəxsiyyətlərinin yaradıcılığını mənimsəyirlər;<br>-Azərbaycan ədəbiyyatında sentimentalizmin yaranması və görkəmli nümayəndələrinin həyatı və fəaliyyət yolunu mənimsənilir;<br>-XX əsrin əvvəllərində Azərbaycan milli mətbuatının inkişaf yolu, mətbu orqanların fəaliyyət yolu mənimsənilir.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda tapşırıqlar verilir və müzakirə aparılır</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir</td></tr>
<tr><td>Simulyasiya</td><td>Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir</td></tr>
<tr><td>Layihə</td><td>Tələbələrə dərsə aid fərdi tapşırıqlar verilməli və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir</td></tr>
<tr><td>Digər</td><td></td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla”</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td colspan="2"></td></tr>
<tr><td>Qiymətləndirmə</td><td colspan="2">Tapşırıqlar: Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| **metodları** | qiymətləndirilir.<br>1. Ə.Haqverdiyevin hekayə yaradıcılığı<br>2. Sabir və "Molla Nəsrəddin"<br>3. H.Cavidin "Şeyx Sənan" və N.Nərimanovun "Bahadır və Sona" əsərlərində ortaq və fərqli məqamlar<br>4. A.Divanbəyoğlunun "Can yanğısı" əsəri<br>5. Ü.Hacıbəyovun publisistikasının mövzu dairəsi<br>6. XX əsrin əvvəlləri maarifçi-realist ədəbiyyatda təbdil və iqtibas<br>7. S.M.Qənizadənin bədii yaradıcılığında maarifçilik ideyaları<br>8. Y.V.Çəmənzəminlinin hekayə yaradıcılığı<br>9. C.məmmədquluzadənin "Dəli yığıncağı" əsəri<br>10. XX əsrin əvvəllərində uşaq mətbuatı<br>11. N.Nərimanovun dramaturgiyası<br>12. "Molla Nəsrəddin" jurnalının yaranması və nəşr tarixi<br><br>**Təqdimat:** Slaydlarla hazırlanan mövzular təqdimat şəklində sunulur və qiymətləndirilir | | |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. | | |
| **Tematik plan** | | | |
| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |
| **1** | **16.09.2021**<br>**21.09.2021** | **XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişaf xüsusiyyətləri/**<br>Bu mühazirədə XX əsrin əvvəllərində Azərbaycanda mətbuatın inkişaf yolu izlənmiş, Satirik mətbuat, uşaq mətbuatının nümunələri, maarifçilik ideyalarının formalaşmasında mətbu orqanların rolu təhlil olunmuşdur. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, 2010, 2011 |
| **2** | **23.09.2021**<br>**28.09.2021** | **"Molla Nəsrəddin" jurnalı və Mollanəsrəddin ədəbi məktəbi.**<br>Bu mühazirədə "Molla Nəsrəddin" jurnalının nəşr tarixi izlənmiş, Mollanəsrəddin ədəbi məktəbinin nümayəndələri və onların jurnal ətrafındakı fəaliyyətləri diqqət mərkəzinə çəkilmişdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002 |

| | | | |
|---|---|---|---|
| **3** | **30.09.2021**<br>**05.10.2021** | **C.Məmmədquluzadə: həyatı, mühiti, yaradıcılığı.**<br>Bu mühazirədə milli demokratik fikirin təşəkkülündə mühüm xidmətləri olan Cəlil Məmmədquluzadənin ömür və sənət yolu mənimsədiləcəkdir. C.Məmmədquluzadənin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə diqqət yetiriləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, III cild, Bakı, 1957 |
| **4** | **07.10.2021**<br>**12.10.2021** | **M.Ə.Sabirin həyatı və yaradıcılığı.**<br>Bu mühazirədə satrik poeziyanın görkəmli nümayəndəsi M.Ə.Sabirin həyat yolu, mühiti təhlil olunacaq, yaradıcılığı və irsinin tədqiq tarixi tələbələrə mənimsədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013 |
| **5** | **14.10.2021**<br>**19.10.2021** | **XX əsrin əvvəllərində satirik poeziya.**<br>Bu mühazirədə XX əsrin əvvəllərində satirik poeziyanın inkişaf yolu öyrədiləcək, ötən sərin əvvəllərindəki satirik poeziyanın görkəmli nümayəndələrinin həyatı, mühiti, sənət yolu tələbələrə mənimsədiləcəkdir. | Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, III cild, Bakı, 1957 |
| **6** | **21.10.2021**<br>**26.10.2021** | **Ə.Haqverdiyevin həyatı və yaradıcılığı.**<br>Bu mühazirədə Əbdürəhim bəy Haqverdiyevin həyat yolu öyrədiləcək, yaradıcılığının spesifik xüsusiyyətləri mənimsədiləcək, ədibin nəsr, dramaturji yaradıcılığı ilə yanaşı ictimai fəaliyyəti, publisistikası, Mollanəsrəddinçi fəaliyyəti də öyrədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, III cild, Bakı, 1957 |
| **7** | **28.10.2021**<br>**01.11.2021** | **N.Nərimanov: həyatı, ictimai fəaliyyəti, bədii yaradıcılığı.**<br>Bu mühazirədə Nəriman Nərimanovun həyatı, mühiti, ictimai-siyasi fəaliyyəti diqqət mərkəzinə çəkiləcək, yaradıcılıq yolu izlənəcək, nəsr, dramaturgiya, publisistika sahəsindəki fəaliyyəti mənimsədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, I və II cildlər, Bakı, 2010, 2011 |

| | | | |
|---|---|---|---|
| **8** | **04.11.2021**<br>**09.11.2021** | **Ü.Hacıbəyovun həyatı və bədii yaradıcılığı.**<br>Bu mühazirədə Üzeyir Hacıbəyovun həyatı, mühiti, AZərbaycan ədəbiyyatı və incəsənətinin inkişafındakı xidmətləri diqqət mərkəzinə çəkiləcək, yaradığıcıq yolu, bədii əsərlərinin mövzu və ideyası, sənətkarlıq məziyyətləri mənimsədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957 |
| **9** | **11.11.2021**<br>**16.11.2021** | **Azərbaycan romantizmi. H.Cavid, M.Hadi.**<br>Bu mühazirədə Azərbaycan ədəbiyyatında romantizmin ədəbi cərəyan kimi formalaşması, romantizmin təşəkkülündə mühüm xidmətləri olan sənətkarların həyatı və yaradıcılıq yolu mənimsədiləcək. H.Cavid və M.Hadinin ömür və sənət yolu öyrədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957 |
| **10** | **18.11.2021**<br>**23.11.2021** | Ə.Hüseynzadə, Ə.Ağaoğlu.<br>Bu mühazirədə Azərbaycan romantizminin görkəmli nümayəndələri kimi Ə.Hüseyinzadə və Ə.Ağaoğlunun həyatı, yaradıcılıq yolu, ictimai fəaliyyəti, türkçülük ideyaları uğrundakı fəaliyyəti mənimsədiləcəkdir. | Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957 |
| **11** | **25.11.2021**<br>**30.11.2021** | **XX əsrin əvvəllərində maarifçi-realist ədəbiyyat.**<br>Bu mühazirədə XX əsrin əvvəllərindəki maarifçi-realist ədəbiyyatın inkişaf yolu izlənmiş, S.M.Qənizadə, S.S.Axundov, M.Mahmudbəyov, R.Əfəndiyev kimi maarifçi ədiblərin həyatı və yaradıcılıq yolu, maarifçi fəaliyyəti mənimsədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957 |
| **12** | **02.12.2021**<br>**07.12.2021** | **XX əsrin əvvəllərində maarifçi mətbuat.**<br>Bu mühazirədə XX əsrin əvvəllərindəki maarifçi mətbu orqanlarının inkişaf yolu izlənmiş, ayrı-ayrı mətbu orqanlarının yaranması və fəaliyyət yolu, qəzet və jurnallarının nəşr tarixi və tədqiq tarixi mənimsədiləcəkdir. | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II cild, Bakı, 1960<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild, Bakı, 1957 |
| **13** | **09.12.2021**<br>**14.12.2021** | **Azərbaycan ədəbiyyatında sentimentalizm. A.Divanbəyoğlu.**<br>Bu mühazirədə Azərbaycan ədəbiyyatında sentimentalism ədəbi cərəyanın yaranması və təşəkkül tarixi izlənəcək, XX əsrin əvvəllərində sentimentalist ədəbiyyatın aparıcı | Mir Cəlal. Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982<br>Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, |

| | | | |
|---|---|---|---|
| | | simalarından olan A.Divanbəyoğlunun həyatı və yaradıcılığı mənimsədiləcəkdir. | 2010, 2011<br>Azərbaycan ədəbiyyatı tarixi. 3 clilddə, III cild, Bakı, 1957 |
| **14** | **16.12.2021**<br>**21.12.2021** | **AXC dövründə ədəbiyyat. Ə.Cavad, Ümgülsüm, C.Cabbarlı.**<br>Bu mühazirədə AXC dövründə ədəbiyyatın inkişaf dinamikası izlənəcək, bu dövrün ədəbi fikrinin zənginləşməsində mühüm xidmətləri olan Ə.Cavad, C.Cabbarlı, Ümgülsüm kimi sənətkarların həyatı və yaradıcılıq yolu mənimsədiləcəkdir. | Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002 |
| **15** | **23.12.2021**<br>**28.12.2021** | S.Hüseyn, Y.V.Çəmənzəminli.<br>Bu mühazirədə Seyid Hüseyin və Yusif Vəzir Çəmənzəminlinin həyatı, mühiti, ictimai fəaliyyəti diqqət mərkəzinə çəkiləcək, yaradıcılıq yolu, əsərlərinin mövzu və ideyası, sənətkarlıq xüsusiyyətləri öyrədiləcəkdir. | Bədirxan Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, 2010, 2011<br>Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013<br>Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002 |
| | | | |
| **Fənn müəllimi:** | | **dosent Əli Həsənqulu oğlu Həşimov** | |